# SU EHTİYATLARIMIZI QORUYAQ, QAYĞI İLƏ YANAŞAQ VƏ MÜHAFİZƏ EDƏK

**Fərayət Əhmədova, Gülşən Süleymanova, Mehnurə Rəhimova, Sevinc Quliyeva**

*Bakı Dövlət Universiteti, mexaragimova@rambler.ru*

Respublikamızın termal suları temperaturuna və fiziki-kimyəvi xassələrinə görə fərqlənirlər. Termal sularımız adətən unikal təbii-iqlim şəraitinə malik zonalarda yerləşir. Onların balneoloji xüsusiyyətlərindən istifadə etməklə müxtəlif xəstəliklərin müalicəsi üçün müalicə-istirahət müəssisələrinin inşasını genişləndirməyə və iqtisadiyyatımıza xeyli gəlir gətirə biləcək turizmin inkişaf etdirməsinə imkanlar var. Eyni zamanda xarici ölkələrin təcrübələrindən bəhrələnərək termal suların fiziki-kimyəvi və mikrobioloji xassələrini nəzərə alaraq gübrələrin, kosmetik vasitələrin alınmasında, şitilliklərin qızdırılmasında, alternativ enerji mənbəyi kimi bioqazların, mikroelementlərin alınmasında və s. istıfadə etmək olar ki, bu da iqtisadi cəhətdən səmərəlidir.